533:1.QXD 09.06.2023 0:27 Page 1


# KÜRD DİPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

№ 21 (533) 01 - 08 İyun, Hezîran sal. il 2023
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sîyasî

Qiymətı: Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Səh. 2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimində iştirak ediblər



Səh. 12

Nêçîrvan Barzanî bi peyamekê salvegera damezrandina YNKê pîroz kir



Səh. 13

Serok Mesûd Barzanî pîrozbahiyê da Recep Tayip Erdoğan



Səh. 3

Daşkəsəndə Vətən Müharibəsi iştirakçılarına "Müharibə Veteranı" vəsiqələri təqdim edilib



Səh. 4

QƏDİM DÜNYA FİLOSOF VƏ COĞRAFŞÜNASLARI KARDUXİLƏRİN İNDİKİ KÜRD XALQININ BABALARI OLDUĞUNU İSBAT EDİRLƏR



Səh. 5

ŞƏHİD JURNALİST ABIŞOV SİRAC ABIŞ OĞLUNUN ANIM TƏDBİRİ KEÇİRİLDİ



Səh. 15

Mesrûr Barzanî li Hewlêrê Pêşangeha Hitex 2023 vedike

Prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binasının açılışında iştirak edib Səh. 2

Dünya Bankası: 'Kürdistan petrol ihracatının askıya alınması Irak ekonomisini geriletecek' Səh. 9

GƏNCƏDƏ MÜSTƏQİL DÖVLƏTLƏR BIRLIYI (MDB) IŞTIRAKÇI DÖVLƏTLƏRIN GÖMRÜK XIDMƏTI RƏHBƏRLƏRI ŞURASININ 76-CI ICLASI KEÇIRILIB Səh. 3

## Kürt Tarihinin Kaynakları Səh. 10

## Zilan dərəsinin qanlı faciəsi Səh. 6

## Lozan Konferansı, Kürdler ve Kürdistan Səh. 11



Səh. 9

Laçın Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Elçin İsgəndərov



Səh. 13

Şamil Dəlidağlının söz incilərindən



Səh. 14

Umîd Xoşnav: Di navbera Herêma Kurdistanê û Îranê de deriyekî nûh vedibe



Səh. 14

Noam Chomsky: Kurd bi yekbûnê dikarin li navenda kêşeyên Rojhilata Navîn xwe biparêzin

533:1.QXD 09.06.2023 0:27 Page 2



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimində iştirak ediblər



İyunun 3-də Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, birinci xanım Mehriban Əliyevanı, digər dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini salamladılar.

Mərasimdə Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün, şəhidlərin və fevralın 6-da baş vermiş zəlzələ nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Sonra Türkiyə Respublikasının Dövlət Himni – "İstiqlal Marşı" səsləndirildi.

Rəcəb Tayyib Ərdoğan çıxış edərək yenidən Prezident vəzifəsinə seçilməsi üçün ona etimad göstərən seçicilərə minnətdarlığını bildirdi. Mayın 28-də keçirilmiş seçkilərdə millətin iradəsinin əksini tapdığını, "Türkiyə yüzilliyi"nin başladığını və ölkənin sıçrayış mərhələsinin qapılarının açıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan siyasi və dini baxışlarından, etnik mənsubiyyətindən asılı olmayaraq, 85 milyonluq əhalinin etimadını boşa çıxarmamaq üçün səylə çalışacaqlarını qeyd etdi. Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümündə sarsılmaz həmrəyliyə daha böyük ehtiyac duyulduğunu diqqətə çatdıran dövlət başçısı bu gün elan olunacaq yeni hökumətlə birlikdə "Türkiyə yüzilliyi" istiqamətində səylə çalışacaqlarını bildirərək dedi: "Gün bir olmaq, bərabər olmaq, min illik qardaşlığımızı daha da möhkəmləndirmək günüdür. Gün övladlarımızın aydın sabahlarına sahib çıxmaq günüdür... Birlikdə "Türkiyə yüzilliyi"nin inşası üçün çiyin-çiyinə çalışmalıyıq".

Türkiyə demokratiyasının bütün azadlıqların əksini tapdığı, mütərəqqi və əhatəli Konstitusiya ilə gücləndiriləcəyini qeyd edən Rəcəb Tayyib Ərdoğan növbəti beş il ərzində Türkiyə Respublikasının şanını və şərəfini qorumaq, etibarını artırmaq və adını dünyada daha da ucaltmaq üçün var gücü ilə çalışacaqlarını vurğuladı.

Prezident Rəcəb Tayyib Ərdoğan səlahiyyətlərinin icrasına başlaması mərasimində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevə, digər dövlət, hökumət başçılarına və qonaqlara bir daha minnətdarlığını bildirdi.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, dualar edildi.

Xatırladaq ki, Rəcəb Tayyib Ərdoğan prezident seçkilərinin mayın 28-də keçirilmiş ikinci turunda 52,18 faiz səs toplayaraq qalib gəlib.

# Prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binasının açılışında iştirak edib

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binası istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Son illərdə paytaxtda modern üslubda tikilən binalar sırasına daha biri əlavə olunub. Xətai rayonu, Nəcəfqulu Rəfiyev və Süleyman Vəzirov küçələrinin kəsişməsində ucaldılan yeni bina da müasir memarlığı ilə diqqəti cəlb edir.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bina barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, yeni binanın tikintisinə 2017-ci ildə başlanılıb və bu ilin iyun ayında başa çatdırılıb. Müasir memarlıq üslubuna uyğun inşa olunan bina nazirliyin aparatı ilə yanaşı, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Tədqiqatlar Mərkəzi, Aqrar İnnovasiya Mərkəzi və Aqrar İnkişaf Könüllüləri olmaqla 500-ə yaxın əməkdaşın fəaliyyəti üçün nəzərdə tutulub.

Binanın hündürlüyü olan 12 metr foyesində "Əbədiyyət" kompozisiyası nümayiş olunur. Kompozisiyanın müəllifi rəssam-heykəltaraş Rəşad Mehdiyevdir.

Üç hissədən ibarət olan kompozisiyanın rəmzi motivi Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyini əks etdirir.

Kompozisiyada Azərbaycan xalqının həyat fəlsəfəsinə uyğun əbədi dəyərləri, qalib insan ruhunu, zəhməti və bərəkəti, dayanıqlılığı nümayiş etdirən ideyalar əksini tapıb. Mərkəzdə Heydər Əliyevin büstü olan kompozisiyada ağacın budaqları səmaya və sonsuzluğa doğru ucalır. Kufi üslubunda xüsusi bir nizamla yaradılan şəbəkə səmanı ifadə edir. Səmada Ümummilli Liderin anadan olmasının 100 illiyini əks etdirən 100 ulduz parlayır.

Ağacla bərabər səmaya ucalan sütunlar ərzaq təhlükəsizliyinin dayanıqlılığını təcəssüm edir. Ağacın budaqları kompozisiyanın sağına - qələbə və sülhün bərqərar olduğu bərəkətli torpaqlar əks edilmiş rəsmə doğru uzanır. Yağlı boya ilə işlənən əsərdə əzəmətli



dağın və geniş buğda zəmisinin üzərindən səmaya doğru pərvazlanan göyərçinlər 44 günlük Vətən müharibəsində qazanılan Qələbəni müjdələyir.

"Əbədiyyət" kompozisiyasının sol hissəsində torpaqlarımızda yetişən nemətləri təqdim edən insan əlləri heykəli əks etdirilib. Bərəkət və zəhməti təcəssüm etdirən əllər ağacın budaqlarından qidalanır.

Qeyd edildi ki, burada Ümummilli Liderə həsr olunan xüsusi "Heydər Əliyev-100" guşəsi də yaradılıb. Bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Ulu Öndərin Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı gördüyü işlər guşədə geniş əks olunub.

Nazirliyin yeni binası ilə tanışlıq zamanı qeyd olundu ki, 215 otaqdan ibarət işçi mərtəbələrdə əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada nazirliyin Elektron İdarəetmə Mərkəzi üçün xüsusi otaq, hər cür şəraitə malik və müasir multimedia vasitələri ilə təchiz olunan konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxana var. Diqqətə çatdırıldı ki, ərazidə 170 avtomobil yerlik dayanacaq yaradılıb.

533:1.QXD 09.06.2023 0:27 Page 3



# Daşkəsəndə Vətən Müharibəsi iştirakçılarına “Müharibə Veteranı” vəsiqələri təqdim edilib



İyunun 6-da Daşkəsən Rayon İcra Hakimiyyətinin, Müdafiə Nazirliyinin və Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rayon bölməsinin birgə təşkilatçılığı ilə “Müharibə veteranı” statusu almış Vətən müharibəsi iştirakçılara “Müharibə veteranı” vəsiqələrinin təqdim edilməsi mərasimi keçirilib.

Rayonun Heydər Əliyev Mərkəzində keçirilən toplantıda Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, Müdafiə Nazirliyinin məsul əməkdaşı polkovnik-leytenant Elbrus Mehdixanov, SHXÇDX-nin rayon bölməsinin rəisi Səbuhi Abdullayev, veteranlar, qazilər, şəhid valideynləri, ağsaqqallar, ziyalılar, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Dövlət Himni səsləndirilib, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad olunub.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev giriş nitqi ilə çıxış edərək deyib:

- Müasir müstəqil Azərbaycanın qüdrətli və nizami orduya malik olması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir. Ulu Öndərimizin siyasi kursu bu gün onun ən layiqli davamçısı möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir, ölkəmizin mövqeləri beynəlxalq aləmdə daha da möhkəmlənir. İndi Azərbaycan dünya miqyasında öz gücünə arxalanan, heç kimdən asılı olmayan tam müstəqil ölkədir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun uzun illər Ermənistanın işğalı altında qalan ərazilərimizi böyük qəhrəmanlıq göstərərək azad etməsi və işğala həmişəlik son qoyması bunun bariz göstəricisidir.

Ötən dövrlər ərzində Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ordu quruculuğu sahəsində çox mühüm addımlar atılmışdır. Bunun nəticəsidir ki, bu gün Azərbaycan Ordusu regionda lider olmaqla, dünyanın ən güclü orduları sırasındadır. Bu orduda xidmət etməyin özü gənclərimiz üçün böyük şərəfdir.

İndi ordu ilə xalq arasındakı qarşılıqlı münasibət bütün ölkəmizdə olduğu kimi Daşkəsən rayonunda da tam sağlam təməllər üzərindədir. Gənclərimiz vətənpərvərlik ruhunda tərbiyə olunurlar, rayonumuzda və ölkədə gedən ictimai-siyasi hadisələrə sağlam münasibət bəsləyirlər, bir-birinin ardınca parlaq uğurlar qazanırlar. Rayonumuzun gəncləri bütün dövrlərdə ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında yaxından iştirak ediblər. Bu gün də həmin ənənə yüksək səviyyədə davam etməkdədir.

Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Daşkəsən rayonundan da yüzlərlə gənc döyüşlərdə iştirak edərək cəsarət və igidlik nümunələri göstəriblər, tarixi Zəfərin qazanılmasına öz töhfələrini veriblər. Daşkəsənli rəşadətli hərbi qulluqçularımız Vətən müharibəsində döyüş meydanlarında fədakarlıqları və şücaətləri ilə Azərbaycan gənclərinin yenilməzliyini, mübarizliyini, qorxmazlığını, Vətənə, dövlətə və Ali Baş Komandana sadiq olduqlarını lazım gəldikdə müqəddəs torpaqlarımız uğrunda şəhidlik zirvəsinə yüksəlməklə, sağlamlıqlarını itirməklə sübut ediblər. Mən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Şəhid ailələrinə səbir arzulayıram.

Ölkəmizin çoxşaxəli sosial siyasətində həssas qrupdan olan insanlara, o cümlədən şəhid ailələrinə və qazilərə hərtərəfli qayğı göstərilməsi xüsusi yer tutur. Dövlət rəhbərimiz cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın tapşırığına əsasən 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə rayonumuzdan da olan şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi icra olunur, onların qayğıları və problemləri daim öyrənilir, yüksək səviyyədə həll edilir. Rayonumuzun şəhid ailələrinə, qazilərinə və müharibə iştirakçılarına hər zaman göstərdikləri diqqət və qayğıya görə biz daşkəsənlilər Prezidentimiz cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk.

Bu gün biz qalib Azərbaycan Ordusunun sıralarında Vətən müharibəsində iştirak edib ölkəmizin ərazi bütövlüyünü göz bəbəyi kimi qoruyaraq “Müharibə veteranı” statusu almış sizlərə “Müharibə veteranı” vəsiqələrini təqdim edəcəyik. Mən bu çox əlamətdar hadisə münasibətilə bütün Daşkəsən rayon ictimaiyyəti adından siz müharibə iştirakçılarını ürəkdən təbrik edirəm, hər birinizə yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayıram.

Çıxışında Müdafiə Naziri general-polkovnik hörmətli Zakir Həsənovun salamlarını və təbriklərini çatdıran Müdafiə Nazirliyinin məsul əməkdaşı Elbrus Mehdixanov tədbirin mühüm əhəmiyyətini qeyd etməklə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müharibə veteranlarına göstərdiyi hərtərəfli diqqət və qayğıdan söz açıb.

Digər çıxış edənlər də Vətən müharibəsi iştirakçısı olmuş igid daşkəsənlilərə təbriklərini çatdıraraq xoş arzularını bildiriblər.

Tədbirin sonunda 400 nəfərdən çox müharibə iştirakçısına alqış sədaları altında “Müharibə veteranı” vəsiqələri təqdim edilib.

# Tərtərdə Vətən müharibəsi şəhidi Mənsimli İntiqam Rövşən oğlunun anadan olduğu gün qeyd olunub

5 iyun tarixində Tərtər rayonunun Kəngərli kəndində qeyd olunan mərasimdə şəhidin ailə üzvləri ilə yanaşı Tərtər Rayon İcra Hakimiyyəti başçısı aparatında İctimai-siyasi və humanitar məsələr şöbəsinin müdirinin müavini Zabil Paşayev, Tərtər Cümə Məscidinin imamı Sadiq Cəfərov, şəhid ailələri, qazilər, müharibə veteranları iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə şəhidin kənd qəbristanlığındakı məzarını ziyarət edib,önünə gül dəstələri düzüblər. Tərtər Cümə Məscidinin imamı



Sadiq Cəfərov şəhidin ruhuna dualar oxuyub.

Sonra mərasim şəhidin evində davam etdirilib.

Azərbaycan Ordusunun əsgəri Mənsimli İntiqam Rövşən oğlu 1998-ci il iyunun 5-də Tərtər rayonunun Kəngərli kəndində anadan olub. 2015-ci ildə Cəmçid Naxçıvanski adına Liseyi bitirmiş, Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olmuş, 2017-ci ildə təhsilini yarımçıq qoyub, könüllü olaraq Xocavənd istiqamətində ön cəbhədə xidmət etmişdir.O,minaatan batareyada manqa komandiri olub.

Mənsimli İntiqam 2020-ci il oktyabrın 16-da Talış istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Oktyabır ayının 17-da yaşadığı Tərtər rayonunun Kəngərli kəndində dəfn olunub.

O, 44 günlük Vətən müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən ölümündən sonra “Cəsur döyüşçü”, “Vətən uğrunda” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

Doğulub boya-başa çatdığı kənddə şəhidin adı əbədiləşdirilərək adına bulaq inşa edilib.

Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

Allahdan bütün şəhidlərimizə rəhmət, qazilərimizə can sağlığı diləyirik.

# Gəncədə Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 76-cı iclası keçirilib



06 İyun 2023-cü il tarixində Gəncə şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 76-cı iclası keçirilib.

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata əsasən, iclasda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Rusiya Federal Gömrük Xidmətinin rəhbəri vəzifəsini müvəqqəti icra edən Ruslan Davıdov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, o cümlədən Rusiya Federasiyasının, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Belarus və Tacikistan Respiblikalarının gömrük xidmətlərinin rəhbərlərinin iştirak edib.

Əvvəlcə nümayəndə heyətləri Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə əklil və gül dəstələri düzüblər. Həmçinin iclas iştirakçıları Ermənistan silahlı qüvvələrinin Gəncədə törətdikləri terror nəticəsində dağılan əraziyə gəlib, həlak olan dinc sakinlərin xatirəsini ehtiramla anıblar.

Daha sonra qonaqlar Gəncə şəhərində Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

Toplantıda çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov əməkdaşlığın gücləndirilməsi, qabaqcıl təcrübələrin və məlumat mübadiləsinin genişləndirilməsi baxımından şuranın iclasının əhəmiyyətindən danışıb və aparılacaq müzakirələrin səmərəli olacağına əminliyini ifadə edib.

Sonra iclasın gündəliyində duran məsələlərin müzakirəsinə başlanılıb.

İclas iştirakçıları dəmir yolu ilə daşınan malların gömrük əməliyyatları və gömrük nəzarəti zamanı gömrük orqanları və daşıyıcıların fəaliyyətinin təşkili, gömrük xidmətləri arasında ekspert və tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında saziş layihəsinin hazırlanması, malların gömrük dəyəri, eyni zamanda əqli mülkiyyət hüquqlarının pozulması ilə bağlı məlumat mübadiləsinin reallaşdırılmasına dair məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Həmçinin üzv dövlətlərin gömrük orqanları tərəfindən nəqliyyat və kommersiya sənədlərinə gömrük orqanlarının möhür və ştamplarının vurulması qaydası və kadr hazırlığı haqqında saziş layihələri ilə bağlı müzakirələr aparılıb.

İclas çərçivəsində Rusiya Federal Gömrük Xidmətinin rəhbəri vəzifəsini müvəqqəti icra edən Ruslan Davıdov MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının sədri seçilib.

Xatırladaq ki, bir gün əvvəl, 05 iyun 2023-cü il tarixində MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının ekspertlərinin də iclası keçirilib.

533:1.QXD 09.06.2023 0:27 Page 4



# QƏDİM DÜNYA FİLOSOF VƏ COĞRAFŞÜNASLARI, KARDUXİLƏRİN İNDİKİ KÜRD XALQININ BABALARI OLDUĞUNU İSBAT EDİRLƏR



Qutilərin varlığı çox qədimlərə uzanır. Bu günə qədər bilinən ilk Quti imperatoru Emnatum miladdan əvvəl 3100-cü illərdə yaşamışdır.

Lağas kralı Adadnari hələ miladdan əvvəl 2400-cü illərdə Karda xalqından söz etmişdir. Eyni fikri Ur (Our) kralı Kmil Sin də Kurde torpqlarından bəhs edərək təsdiqləmişdir. Hitit kralı I Şuppilulita m. ə 1370-ci ildə Qurde xalqından söz açmışdır. Daha sonralar Assur kitabələrində Kardaka yaylasından və Kurtie - Kurti xalqından bəhs olunmuşdur.

Assur kralı Tukulti İnor, Qutilərə "Kurdi" deyirdi (Bax: İhsan Nuri Paşa, səh-33).

Milladdan 900 il əvvəl yaşamış Assur kralı Adalnirari Kusi, Kuti, Subari orduları ilə vuruşduğunu qeyd edir. Bu kral öz kitabələrində Qutiləri "Kürdi" deyə adlandırıb.

Kürd xalqının tarixini incələyərkən araşdırmaçıların müxtəlif dəyərli əsərlərindən istifadə etdikləri İhsan Nuri Paşa bu haqda belə demişdir:

- Kürd əsilli olan Khaldi (Xaldi), Ararati. Subari, Nauri, Mitanni, Muşki və Kassit dövlətlərinin Qutilərdən ayrıldığını, yəni hamısının kökünün qutilərə dayandığını göstərən əsərlər var. Bunlardan biri m. ə 1280-1261-ci illərdə yaşamış Asur kralı I Salamanasar krallığından qalan kitablarda bunu yazır: "Bir ulduz kimi parlayan Quti xalqı yalnız çoxluğu ilə deyil, əzm, şiddət, dəhşət və yıxıçılıqları ilə tanınmaqdadır. Düşmənçilikləri mənə də qarşı sürüb getdi".

Kürd Quti dövlətinin dağılmasından təxminən 1000 il sonra yaşamış Assur kralı Salmanasar, beləcə Quti qollarından gələn və öz yerinə çatan yeni kürd xalqlarının və onların dövlətlərinin qutilərin soyu və övladları olaraq tanıtmaqdadır. Onlar üçün min illik bir zaman fasiləsindən sonra da yenə quti sözlərini işlətməkdədir.

Etdiyi müharibələrdən sonra kral Salmanasar bunları yazmışdır: "Ararat sərhədindən Tur Abidinə qədər bir ölkə içində Quti qanı su kimi axıdıldı, lakin məğlub olmalıdılar".

… Yuxarıda adları çəkilən coğrafi terminlərin yerləşdiyi bölgələrdə bu gün də kürd xalqı yaşamaqdadır. Tarixi Babil ölkəsini fəth etmək ilk dəfə qutilərə nəsib olmuşdur. Quti dövləti parçalandığında, onların qollarından biri olan Kassitlərin parlaq və güclü dövrləri 725-ci ilə çatan bir məmləkətin təməlini Babildə saldılar. Kürd xalqının məşaləsini Subarilər, Mitanilər, Khaldilər, Muşki və Nayri dövlətləri vasitəsilə Med imperatorluğuna qədər daşıyıb gətirdilər.

Qutilərin kürd xalqının atası olduqlarını isbat etmək üçün "Ön Asiya və Mesopotomiya" tarixini incələyən və araşdıran elm və tarixçi amilləri də bu həqiqəti araşdırmalarında dilə gətirmişlər. Bunun isbatı olaraq Pensilvaniya Univerisitetinin professorlarından Speizer "Mesopotomiyanın kökəni" adlı əsərində kürdlərin qutilərlə Zaqros hulibiləri ilə eyni irqdən olduqlarını yazır (B. Nikitin, cild I. səh 91. Diponot).

Osmanlı tarixçilərindən Əhməd Rəfik "Ümumi tarix" adlı əsərində və onunla birlikdə Əmin Zəki də "Kürd tarixi" adlı əsərində müxtəlif fakt və sübütlarla eyni fikri təsdiqləmişlər (Ehsan Nuri Paşa, səh 38-40).

Tanınmış tarixçi Mucerson qutilərdən gələn Naviri xalqının hakimiyyətinin sonunda Kurti deyilərək adlandırıldıqlarını göstərməkdədir ki, bu da qutilərin kürdlərin ataları olduqlarını sübut edir. Hətta doktor Kontinov da miladdan 4000 min əvvəl Mesopotomiya və Zaqros dağlarında yerləşən xalqların Quti və Kusi (Kassit) deyə adlandırdıqları və ari irqdən olduqlarını, Kürd xalqının bu torpaqlardan enib gəldiyini vurğulayır. İstər Mucersonun, istərsə də doktor Kontinovun dediklərini təsdiq etmək üçün "Kürd ədəbiyyatı tarixi" əsərini göstərmək istərdik (II hissəyə bax).

- Şərqşünas Draver "Kürdlər və Kürd tarixi" kitabında qutilərin və kardaların kürd xalqının ataları olduqları olduğunu yazır. Digər bir şərqşünas Rayks da eyni fikirdədir (İ. N. P. səh. 173). Kürd xalqının qədimliyi və kürdlərin antik dövrdən gələn bir xalq olduğunu türk alimləri tərəfindən yazılmış "İslam ensklopediyası" əsərinin 1089-cu səhifəsində bunlar qeyd edilmişdir. Miladdan təqribən 2000 il əvvəl II Şumer dövrünə aid daş yazısında, Thureau-Danqin (Revue d Assurioloqie, v-99, VI, 67) bir Kardaka adına təsadüf edilir. Bu ölkə Driverin Van gölünün cənubunda göstərdiyi Su tayfasının yanında idi. Miladdan sonra 1071-ci ildə Malazgirddən Anadoluya girmiş türk xalqı ilə kürd xalqının heç bir qohumluğunun olmadığı Milli Təlim Nazirliyi tərəfindən nəşr edilmiş ensiklopediyada öz əksini tapmışdır. Adı bilinən Quti krallarından Losirab, Şərlək, İks, Huş, Anri, Danzir, Trikan ən başlıca krallardandırlar. Bunlardan Şərləkə Firdovsinin "Şahnamə" əsərində Siyamən, İkş, Huşaya isə Huşəng adlandırılmışlar.

Babil dövlətinin süqutundan sonra, sadəcə 125 il 40 günlük Babil hökmranlığı zamanı həmsərhəd olan Quti krallarının sayı 14 olduğunu İ. N. Paşanın adı keçən əsərindən öyrənirik. Bazil Nikitin də qutilərin Sarqon xanadanlığına son verdiklərini və eyni dövlətin miladdan öncə 2496 - cı ilə qədər hökmranlığının sürdüyünü yazır (B. Nikitin "Kürdlər" cild I, səh-31).

Özü Quti soyundan olan Louqal Oton (Louqan kralı) Erun kralı olaraq Quti kralı Trikanini məğlub etdi. Quti xalqı bu məğlubiyyətdən sonra bəyliklərə bölündü. Bu dağınıqlıq içindən Bitlis bölgəsindəki qutilər Kardaka adını aldılar. Bəxtiyari dağlarındakı və ətrafındakılar müstəqillik qazandılar. Ancaq tarixi baxıma görə, qutilərdən sonra bu ölkə xalqını yetişdirdiyi və tarixə damğasını vuran iki yeni türk dövləti meydana gəldi. Bunların parlaq və görkəmli dönəmi 725 il sürən kürd Kussi - Kassit dövləti ilə bu dövlətin yaşama müddətinin ortalarında yer alan və təqribən 175 illik bir yaşam sürən Böyük Kürd Mittani imperatorluğudur.

Kürd Kassit - Kussi dövləti haqqında məlumat verərkən bu haqda da qabaqcadan bildirmək istəyirik ki, bu dövlətə Cəmşidin adı verilmişdir. Hətta Firdovsinin "Şahnamə" əsəri də Kassit - Kussi dövlətini kinayə ilə Cəmşidin milləti hesab edir.

Quti imperatorluğunun dağılmasından sonra quti xalqının yaratdığı bu dövlət siyasi hakimiyyətini m. ə 1891-1171 - ci illərdə sürdürmüşdür. Qərb tarixçiləri isə bu hakimiyyətin sonunu 1160-cı il olaraq göstərir (Mauriçe Meumao, "Le Monte antiqie" əsəri, Paris 1976. Səh-160 ).

Kürd sivilizasiyası bu dönəmdə insanlığa böyük mənfəət verdi. Sənət, mədəniyyət, ədəbiyyat, el sənətləri, heykəltaraşlıq, rəsm və ev əşyalarının formalaşdırılmasında Kürd Kussi dövləti, Mitani dövləti ilə birlikdə çağdaşları Hititlərə, Asurlara və fironların idarəçiliyində olan Misir ölkəsinə böyük ölçülərdə təsir etmişdir.

Tarixi araşdırmalarda və İraq Kürdüstanındakı arxeoloji qazıntılar zamanı əldə edilən kürd milli kalaritinə uyğun olunan şahanə heykəllər 1984-cü ildə Bağdad Milli Muzeyinə qoyulub. Yenə Kürd Kassit imperatorluğuna aid adlı - sanlı "Sinus səhnəsi" adlı daş üzərində yonularaq gerçəkləşdirilmiş əsər Parisin "Laubre" muzeyini bəzəməkdədir. Belə nümunələrdən yüzlərlə saymaq olar.

Beləliklə, güclü Firon hakimiyyətindən geridə qalmayan, böyük bir tarixi zənginliyə malik olan Kürd Kassit dövləti siyasi, iqtisadi, eləcə də elm sahəsində irəli getmələrini göstərən dəlillərlə sübut etməkdədir.

Ölkələr arasında əlaqələr qurulur, məktublar yazılır, elçilər təyin edilirdi. Xüsusilə firon ölkəsi Misirlə Kürd Kassit dövləti arasında idxalat və ixracat, kredit və ya mübadilə yolu ilə yardımlar şəklində təşkil olunurdu. Bu dövlətdə barış və sülh müqavilələri imzalanırdı. Beləliklə, tarixin bildiyi ən qədim zamanlardan günümüzə qədər dövlət quruluşu ilə, dövlətlərarası danışıqların hüquqi təməlləri Kassit - Kussi imperatorluğunda rast gəlinir (Bu haqda geniş məlumat almaq üçün bax: Mauriçek Muleau "Len Monte Antique". Səh-161).

İdarəetmə sistemində yeni bir qayda yaradılmışdı. Tapınaqlardan dini ayinlərlə yanaşı sənət, mədəniyyət və ədəbi əsərlər də sərgilənməkdə idi. Kürd xalqı bu adətlərini günümüzə qədər də davam etdirməkdədir. Bu dövlətin idarəetmə, hüquqi, toplumsal və mədəni qurumlarının o zamanda ən irəli bir düzəndə olması bir təsadüf deyil. Çünki, Kassitlər m. ə 1530-cu ildə ulu babaları qutilər kimi Babili (Babilosu) tamam işğal etdilər. Qərbin qədim dövr tarixçilərinin bildirdiklərinə görə, Kürd dövlətinin rəhbərləri məğlubiyyətə uğratdıqları Babilon ölkəsinə məxsus olan uyqarlığa da sahib oldular.

Məlum olduğu kimi, daha əvvəllər də bu ərazilərdə Hammurapinin yaratdığı monarxiya hakimiyyəti mövcud idi. Babil uyqarlığına öz damğasını vuran bu kral Assurları, Esəhnunna və Mari krallıqlarını məğlub edərək miladdan əvvəl 1695-ci ildə ölkəsinin sərhədlərini bir xeyli genişləndirdi. Həm Hammurapi (m.ə 1729-1686), həm də sələfi kral Şamsu İloina (m.ə 1686-1648) ölkədə hüquqi dövlət qurmuşdular. Ölkədə sağlam idarəetmə üsulu vardı. Maliyyəçilər (Tacirlər təşkilatının rəhbərləri), hakimlər və vilayət valiləri mərkəzdəki büroya bağlı idilər. Dövlətin amirləri Vali və Bələdiyyə sədrləri kimi vəzifələr də yazılı əmrlərin həyata keçirilib keçirmədiyini diqqətlə izləyir. Siyasi və iqtisadi yaşamı tək özü idarə edirdi.

Hammurapinin hüquq kodu çox məşhurdur. İnsanlıq tarixində bilinən ən qədim qanunu qoymaq yalnız ona nəsib olmuşdur. Bu kodake (kod) araşdırıldığında bu ölkədə kralın xalqın atası və qoruyucusu olub, güclü ilahi varlıqlardan (Tanrılardan) aldığını görürük:

- Tanrıların diqqəti və sevgisi olan mən Hammurapi ölkədə ədaləti yaşatmaq, ziyankarları və qatilləri məhv etmək, xalqımın üstündə günəş kimi doğaraq dünyanı aydınlatmaq üçün Tanrı Manrunun vəzifələndirdiyi bir çoban olaraq idarə etdiyim xalqıma heç bir zaman zülm etmədim və tənbəl olmadım. Mənim yaxşılıqsevər kölgəm ölkəmdəki bütün şəhərlərin üzərinə yayıldı. Şumer və Akkad ölkəsi insanlarını da bağrıma basdım. Onları sülh içində idarə etdim. Mənim mövcudluğum onları da qorudu. Güclü olanın zəifi məhv etməməsi üçün, yetimlərə və dullara haqlarını qorumaq üçün ölkədə ən yaxşı ədalət qurararaq, bunları qoruyacaq qanunları bildirmək üçün bu lövhəyə dəyərli sözlərimi yazdım. Adil bir kral olaraq mənim varlığım önündə ilsak edirəm (Hammurapi qanunları - ön söz. Səh -160).

Beləliklə, Kürd Kassit dövləti Babili fəth edib öz ərazisinə qatdığı zaman bu ölkə üzərində sosial - iqtisadi, idarəetmə və mədəni bir vaxtda inkişaf edən xəzinə vardı. Kassilər də Babili almadan öncə böyük bir dövlətin təmsilçiləri idilər. Qaldı ki, Hammurapi monarxiyasının da Kassitlərin atası olan Quti ölkəsindən eyni bir biçimdə miras olaraq bir çox şeylərin dövr almasına, bu da alimlər tərəfindən təsdiq edilməkdədir.

Quti və Hurrilər dövründə atı daşıma və çəkmə vasitəsi kimi ilk dəfə insanlıq Kassitlər zamanında minik heyvanı kimi də istifadə etmişlər.

Bu tapıntıdan həm bir yerdən başqa yerə tez getmək məqsədi üçün, həm də müharibələrdə hərbi vasitə kimi də yararlanırdılar. Digər tərəfdən də Neolitin vaxtından ən önəmli şəkildə rast gəldiyimiz və tarixçilərin təxminlərinə görə, hələ palçıqken üst-üstə qoyularaq inşa edilən kərpic ilk dəfə Kassit dövlətində içinə saman qarışdırıb gündə qurudulmaqla inşaatda istifadə edilmişdir. Aradan 3500 il keçməsinə baxmayaraq, kərpic Ön Asiyanın inşaatında ən başlıca vasitədir.

***Araşdırdı: Tahir Süleyman***

# ŞƏHİD JURNALİST ABIŞOV SİRAC ABIŞ OĞLUNUN ANIM TƏDBİRİ KEÇİRİLDİ




Qubadlı rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 5 iyun 2023-cü il tarixində Sumqayıt şəhər Şəhidlər Xiyabanında Şəhid Abışov Sirac Abış oğlunun anım tədbiri keçirildi. Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Haxverdiyev, YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar cəmiyyətinin sədri Rövşən Məmmədov, Sumqayıt şəhər İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkilli şöbəsinin müdiri Tərlan Hacızadə, RİH-in məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, Şəhidimizin ailə üzvləri və yaxınları, döyüş yoldaşları, eyni zamanda ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Tədbir iştirakçıları əvvəlcə torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş vətən oğullarının xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Sonra Şəhidin ruhuna dualar oxundu.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin Qubadlı rayon nümayəndəliyinin işçiləri və Qubadlı rayon Dondarlı kənd tam orta məktəbinin şagirdləri tərəfindən Vətənpərvərlik mövzusunda və şəhidlərimizin ruhuna həsr olunmuş şeirlər səsləndirildi.

Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Haxverdiyev qeyd etdi ki, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizin qəhrəmanlığı, xalqın birliyi və ədalətli mövqeyi "dəmir yumruq"da birləşərək işğalçıya sarsıdıcı zərbə vurmuşdur. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki şəxslər, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirdilər. Prezident İlham Əliyev hərbi sahədə olduğu kimi diplomatik və informasiya savaşı cəbhəsində də misilsiz rəşadət göstərmişdir. Belə ki, müharibənin gedişində və müharibədən sonra onlarla aparıcı xarici KİV-ə müsahibələr vermişdir. 44 günlük müharibədə Ordumuzun qəhrəmanlığı, Ali Baş Komandanın qətiyyəti ermənilərin və havadarlarının bölgədəki siyasətinin iflası ilə nəticələndi. Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu.







Çıxış edən "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar cəmiyyətinin sədri Rövşən Məmmədov Ümummilli lider Heydər Əliyevin ən layiqli davamçısı cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini, Azərbaycanın dünyanın sürətlə inkişaf edən ölkələri sırasında olduğunu, eyni zamanda da 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsini, ölkəmizin regionda və dünyada mövqelərini daha da möhkəmləndirdiyini diqqətə çatdıraraq, bunu həyata keçirilən uğurlu siyasətin nəticəsi olduğunu vurğulamışdır. Ulu Öndərin ənənələrinə daim sadiq qalan Azərbaycan Prezidenti İlham Əliyev onun arzu və ideyalarını müvəffəqiyyətlə həyata keçirərək Müasir Azərbaycanı inkişaf etmiş qüdrətli dövlətə çevirmişdir.

Çıxış edən YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov qeyd etdi ki, Vətən müharibəsində igid oğullarımızın göstərdiyi qəhrəmanlıq sayəsində Şəhidlərimizin qanı yerdə qalmadı, qisası alındı. Qubadlı rayonu 25 oktyabr 2020-ci ildə şəhidlərimizin qanı və canı bahasına işğaldan azad olunmuşdur. 44 günlük Vətən müharibəsində qəhrəmanlar içərisində canından və qanından keçən Qubadlı rayonundan 11 şəhid və 40-dan çox yaralı öz adlarını tarixə yazdılar.

Çıxış edən Sumqayıt şəhər İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkilli şöbəsinin müdiri Tərlan Hacızadə qeyd etdi ki, Dövlətimiz Şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün mütəmadi tədbirlər görür. Onlara təyin edilən Prezident təqaüdü, mənzil şəraitlərinin yaxşılaşması üçün atılan addımlar həmin ailələrin maddi rifah halının yaxşılaşmasına göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Sonra çıxış edən şəhidin təhsil aldığı Sumqayıt şəhəri 40 saylı məktəbin direktoru İlqar Həbibullayev şəhidin yaxınlarına başsağlığı verdi və Sirac Abışov barədə xatirələrini bölüşdü.

Şəhidin atası Abış Abışov göstərdiyi diqqət və qayğıya görə Ali Baş Komandan Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqova və Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcova minnətdarlıqlarını bildirdilər.

Daha sonra Sumqayıt şəhərində yerləşən Qubadlı şadlıq sarayında ehsan süfrəsi verildi

Abışov Sirac Abış oğlu 1989-cu il 29 avqust tarixində Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuşdur. 1996-cı ildə Sumqayıt şəhər Ç.Mustafayev adına 40 saylı tam orta məktəbinə qəbul olmuş , 2007-ci ildə həmin məktəbin məzunu olmuşdur. Elə həmin il Azərbaycan Dəniz Balıq Sənayesi texnikumuna daxil olmuş, 2009-cu ildə Gömrük ekspertizası ixtisası üzrə tam kursu bitirmişdir.

Media sahəsinə olan marağı onun yolunu 2010-cu ildən etibarən Azərbaycan Dövlət Televiziyası və Radiosu Qapalı Səhmdar Cəmiyyətindən salır. Bir müddət "Yurd tv"-də, daha sonra 2020-ci ilin noyabr ayından etibarən işğaldan azad olunmuş rayonlarda yaradılmış, Xüsusi Çəkiliş Qrupunun tərkibində yer almış, ordumuzun nəzarətində olan Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Xocalı, və Xocavənd rayonlarının bütün ərazilərində dövlət əhəmiyyətli çəkilişlər etmişdir.

Əsrarəngiz təbiətə malik olan Kəlbəcərdə növbəti çəkiliş 04.06.2021-ci il tarixində Susuzluq kəndindən başlayacaqdı. Lakin kənd ərazisinə daxil olarkən heyəti aparan Kamaz Markalı nəqliyyat vasitəsi mənfur düşmənlərin tank əleyhinə basdırdığı minaya düşür. Sirac Abışov həmin hadisə nəticəsində dünyasını dəyişərək şəhidlik zirvəsinə ucalır. Həmin vaxt Sirac Abışovla bərabər Azərtacın müxbiri Məhərrəm İbrahimov və RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub. Şəhid jurnalist Sirac Abışov Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 14.06.2021-ci il tarixli Sərəncamı ilə 3-cü dərəcəli Vətənə Xidmətə Görə Ordeni ilə təltif edilmişdir.

Ailəli idi, övladı Özgür adında bir övladı var.

ALLAH RƏHMƏT ELƏSİN !

533:1.QXD 09.06.2023 0:27 Page 6



# Zilan dərəsinin qanlı faciəsi

Dərə öz adını Aqıri (Ararat) dağının ətrafında və Van vilayətində qədim zamanlardan yaşayan güclü Zilan kürd qəbilə konfederasiyasından almışdır.

Hələ 13 iyul 1930-cu ildə baş verən faciəvi hadisələrdən əvvəl, kürdlər arasında Zilan dərəsi haqqında çoxlu mahnı, əfsanələr və nağıllar mövcud idi. Həmin mahnılarda Zilan dərəsindən gələn təhlükə və mistisizm öncədən ifadə olunur. Eyni zamanda bu mahnılar mərdlik, qəhrəmanlıq və sevgi duyğuları ilə bəstələnmişdi. Bu əsərləri kürdlər ilə qonşu olan ermənilər kürd dilində ifa etməyi çox sevirdilər.

Belə mahnıların birini Qurgen Marinin "Yanan bağlar" əsərinin qəhrəmanı kürdcə oxuyur:

"Belə idi... İki kürd qəbiləsi ta qədimdən bir-biri ilə ədavət aparırdılar. Bir qəbilənin başçısı Msto payızda digər qəbilə başçısının qardaşını ölümcül yaralayır. Nə isə... Cındonun qardaşını öldürür. Bahar gəlir, hər tərəf çiçəklənir. Əli silahlı Cındo isə Zilan dərəsinə enərək Mstonu gözləyir.

***Bahar öz yaşıl paltarına büründü***
***Dərədə isə qardaş qardaşın intiqamını almaq üçün tələsir***
***Qan iyi gəlir oradan və təhqirdən sərxoş***
***Zilan dərəsində düşməni gözləyir Cndo***
***Heç kəs, yalnız o intiqam alacaq***
***Düşmən qəbiləsinin başçısı Mstodan***
***Qorxunu unudaraq***
***Mstonun canını külə döndərmək üçün***

* * *

***Ayaqlarını hiss etmədən ana oğlu dalınca qaçır***
***Getmə, oğlum, Zilan dərəsi ilə***
***Bir-iki günlük get Vana***
***Yuxu görmüşəm, yuxuda titrəyirdi***
***Və tüstülənirdi sənin gümüş xəncərin***
***Zilan dərəsini qara tüstü bürüyüb***
***Qara tüstü kəndimizi bürüyüb***
***Qalxdı Msto, atı yəhərlədi***
***Anacan, - dedi, saxlama məni***
***Sənin gəlininə güllər gətirəcəm***
***Sənə isə bir kəklik meşədə ovlayacam***
***Ana atın boynuna sarıldı***
***Getmə, parçalayacaqlar səni, his edir ürəyim***
***Oğlum, ürəyimi susdura bilmirəm***
***Oğlum, anana qulaq as...***

* * *

***Dörd gün və dörd gecə***
***Bir damcı su da içmədi Cındo***
***Böyük qaya arxasında pusqu qurub O***
***Zilan dərəsinin yuxusuz keşikçisi***

* * *

***Bahar gəldi, yaşıllaşdı dağlar və dərələr***
***Dözməz Msto, gələcək O dalınca***
***Gələcək O kəklik ovuna***
***Qara ilan kimi, ac qurd kimi,***
***Pusquda gözləyir Cındo...***

* * *

***Arxadan vurmaq qəhrəmanlıq deyil***
***Cındo, silahı qoy yerə***
***Əgər belə mərdsən çıx yola***
***Mstonu dayandır və vuruş onunla***
***Ədalətli döyüşdə, kim-kimi***
***Kim ölsə - qəbri nurla dolsun***
***Kim sağ qalsa – yüz il yaşasın***

* * *

***Evin dağılsın Msto***
***Atı çapır O, külək də papağından tozu atır***
***Cındonun ürəyi titrədi, uzandı qarnı üstə, nişan aldı***
***Vay Zilan dağları, vay şər dərəsi...***

1930-cu illərin faciəvi hadisələrdən sonra, xüsusən də türk ordusunun Zilan dərəsində yaşayan kürdləri tam məhv etdiklərindən sonra "Zilan dərəsi" mövzusu kürd xalqının yas mərasimlərində oxuduqları əsərlərin əsas mövzusu oldu.

XX əsrin əvvəllərində başlayan I-ci Cahan savaşı zamanı yüz minlərlə kürd türklərin tərəfində dörd cəbhədə Türkiyənin azadlığı və ərazi bütövlüyünü qoruyurdular. Müharibədən sonra isə, Türkiyə hökuməti tərəfindən onlara söz verilənlərin əvəzinə Kürdüstan beş yerə parçalandı, kütləvi şəkildə repressiyalar və milli mənsubiyyətin yox edilməsinə başladılar. Kürdüstanın bütün tərəflərində kürd xalqına qarşı törədilən zorakılığa qarşı bir-neçə kiçik və böyük üsyanlar baş verdi.

Bunların biri də Aqıri (Ararat) üsyanı idi. Bu üsyanın yatırıltması üçün 13 iyul 1930-cu ildə Van vilayətinin, Ergiş rayonunun Zilan dərəsində Türkiyə dövlərti tərəfindən kürdlərə qarşı soyqırım başlandı.

Zilan dərəsində yaşayan kürdlərə qarşı cəza əməliyyatını Türkiyə ordusunun korpus başçısı Səlih paşa başçılıq edirdi. Faktiki olaraq, bu bütöv bir xalqı məhv etmək üçün əməliyyat idi. Əməliyyat türk avisiyasının hava hücumundan başladı. Əsas zirvələr, dərələr və yollar artileriya nəzarətində idi. Top zərbələrindən sonra Zilan dərəsindən giriş və çıxış yolları minlərlə türk əsgəri tərəfindən nəzərə alındı. Qoca, uşaq, qadın fərqinə var-



mada insanların hamısını qırdılar.

Cəmi 44 kəndi məhv etdilər, 15 min əsir isə Gür çayı yaxınlığında güllələndi. Əməliyyatda iştirak edən bir əsgər söyləyir:

"Qadın və uşaqları, minlərlə insanları ətraf kəndlərdən əsir götürərək Zilan dərəsinə apardılar və pulemyotlar ilə əhatə etdilər. Pulemyotların arxasında biz idik, əsgərlər, barmağımız çaxmaqda, nişanımız isə toplaşan camaat idi. Arxamızda çavuşlar idi (serjant, unter-ofiser, erbaş). Onların barmaqları tüfəng çaxmağında idi, nişanda isə biz idik. Onların arxasında zabitlər idi. Onlarda çavuşlara nəzarət edirdilər. Əgər biz atəş açmasaydıq, çavuşlar bizə atəş açmalı idilər, əgər onlar da atəş açmasaydılar, onda zabitlər çavuşlara atəş açmalı idilər.

Biz çaxmağı çəkdik. Uşaqların, gənclərin, qadınların, kişilərin, qocaların vahiməli qışqırıqları dərəni bürüdü... Bir müddətdən sonra səslər yavaş-yavaş iniltiyə çevrildi və kəsildi. Minlərlə qadın, uşaq, kişi, qoca meyidləri yeni yaranmış qan gölündə uzanmışdılar. Sonra onlar qurdquşa yem oldular. Onlar elə həmin vəziyyətdə basdırılmamış qaldılar."

Yaralanaraq meyitlərin altında qalan və möcüzə nəticəsində sağ qalan insanlardan biri də Tayfure Susakdı (Tayfure Zilani). Bir müddət sonra sağ qalanlar həmin hadisələrin dəhşətli məqamlarını açdılar. Bulanık rayonunda yaşayan Tayfure Zilani həmin günü belə xatırlayır:

"Dərviş bəyin başçılığı altında əsgərlər kəndlilərin üsyana qoşulmalarını zənn edərək Zilan dərəsində 7



kənddə axtarış apardılar. Kimi gəldi öldürürdülər. Hər yerdə meyitlər var idi. Mən qaçanda yıxıldım və meyitlərin altında qaldım. Əsgərlər elə bildilər ki, ölmüşəm. Meyitləri bir araya yığdılar və mən onların altında qaldım. Əsgərlərin gedişindən sonra çıxdım. Ailəmizdə tək mən sağ qaldım. Atam, anam, qohumlarım, hamısı öldürülmüşdü. Ümumiyyətlə az adam sağ qaldı və mənim kimi çoxları ağıllarını itirdi. Bir müddət sonra əsgərlər qayıdıb sağ qalanları toplayaraq Muşa, Aqıriyə, Doğu Bəyazidə göndərdilər. Mən də onların içində idim. Biz sutkalarla ac qalırdıq, bizə işkəncələr verilirdi. Sonra, mən əsir kimi bir neçə il əsgərlərə çobanlıq etmişəm. Sonra məni Elazığa dəlixanaya göndərdilər. Uzun illər orada qaldım. Müalicəmi vəhşicəsinə aparırdılar. Çox əziyyət çəkdim. Ara sakitləşəndə isə məni buraxdılar. Kəndimizə qayıtmaq istədim. Lakin qayıdarkən, heç bir ev tapmadım. Muşa qayıtdım, Bulanık bölgəsində məskunlaşdım. O vaxtdan burda qalıram və tullantılar ilə dolanıram."

Əməliyyatdan sonra hakimiyyətin yarı rəsmi orqanı olan Cumhuriyyət qəzeti 13 iyul 1930-cu ildə Zilan dərəsində baş verən qətliam haqqında belə yazırdı: "Ağrı dağı bölgəsində üsyan etmiş kəndlər yandırılıb, əhali isə qovularaq Ergişdə məskunlaşdırılıb".

Zilan hərəkatına mənsub olan öldürülmüş insanların sayı 15 mindən artıqdır. Türkiyənin hərbi tarix arxivində baş qərargahın 1 iyul 1930-cu il tarixli belə bir əmr var: "Üsyan bölgələrində üsyançılara qoşulan bütün yaşayış məntəqələri yandırılsın". 3 avqust 1930-cu il tarixli əmrdə bildirilir: "Üsyançılara cəzanın mütləq olduğunu anlatmaq üçün Oramar (dağ – red.) və ətrafda yaşayan və üsyan edən kürd qəbilələrinin yaşayış məntəqələri Hava Qüvvələri tərəfindən bombalanması zəruridir".

2 iyul 1930-cu il tarixli məruzədə Kaymaz, Haçan, Kölesor, Çilli, Osmanlı və həmçinin Patnos bölgələrində üsyan edənlərə qarşı havadan zərbələr endirildiyini bildirilir. Türk hökümətinin qərarına əsasən: "Üsyan bölgələrində üsyançılara qarşı istənilən tədbirlər qeyri-qanuni hesab edilə bilməz". Və təbii ki, heç bir məsuliyyət olmadan silah tətbiq etmək olardı.

20 iyul 1931-ci il verilən qanuna əsasən yerli hakimiyyət orqanlarına, məmurlara, hərbiçilərə, polis



dəstələrinə geniş səlahiyyət verilirdi və heç bir məsuliyyət daşımadan onlar silah tətbiq edə bilərdilər.

Əhalisinin tam məhvindən sonra Zilan dərəsi "gizli hərbi ərazi" elən edildi. İllər keçdikcə orada "Dövlət Kənd Təsərrüfatı istehsalat sahəsi" yaradıldı. Sonralar Zilan dərəsinə Əfqanıstandan türkmənlər köçürüldü.

Kunduk kəndində yaşayan, o vaxt hadisələrin 17 yaşlı şahidi, kürdlərin soyqırımını belə xatırlayır:

"Türk əsgərləri hamilə qadınları öldürərək, bətnlərdən uşaqları çıxarırdılar. Gözümüzün önündə insan başlarını kəsirdilər. Mənim iki qardaşımı ölənə qədər döydülər".

Soyqırım zamanı Erdem yaxınlıqda olan mağaralarda gizlənərək hadisələrin şahidi olmuşdu.

"Türk ordusunun 7-ci korpusunun minlərlə əsgəri kəndlərə hücum etdilər. Onlar 72 kəndi sıx əhatəyə aldılar. Yaş və cinsinə baxmayaraq, hamını öldürürdülər. Cazələndırma hissələrinin komandiri İbrahim və Dərviş bəy idilər. Onlar qətliama başlayanda, yalnız qaçışla canımızı qurtara bilərdik. Bəzilərimiz taxıl sahələrində, bəzilərimiz isə evlərdə gizlənirdik. Sonra hamı dağlara qaçdı. Günlərlə ac qalırdıq. Əsgərlər kəndi tərk edəndən sonra, kəndə qayıtdıq. Mənim 35 qohumumu öldürmüşdülər. Yalnız böyük qardaşım sağ qalmışdı və o da hadisələrin şahidi olub".

Erdem "Dövlətin bu işdə əli olmayıb", "Ölkədə özbaşınalıq olub" kimi bəyanatları heç cür qəbul etmir. "Mən əminəm ki, əmr məs İsmət İnönü tərəfindən verilmişdi. Dərviş bəy isə Alparslan Türkeşin atasıydı. Kütləvi qətllərə görə onlar cavabdehdirlər. Həmin hadisələri xatırlayanda tüklərim biz-biz durur. Heç cür unuda bilmirəm. Onlar hətta həbs edilmiş insanları da öldürürdülər. Öldürülənlərin çoxu Qurtuluş savaşında (I-ci Dünya Müharibəsi) iştirak edən kürdlərdi. Axı onlar bu ölkəyə görə savaşırdılar. Mən də bu ölkə üçün Sarıqamışda xidmət etmişəm. Bizimlə çiyin-çiyinə xarici düşmənə qarşı vuruşan türklər indi də gəlib bizi qırdılar". ***Kurdist.ru***

# Şamil Dəlidağlının söz incilərindən



*Mən onda şerimə şer deyərəm,*
*Oxucum ətrini qoxlaya bilsə.*
*Mən onda şerimə şer deyərəm,*
*Düşmənin gözünü oxlaya bilsə.*
**(Şamil Dəlidağ)**

### *Deyirsən*

Ay qız, səndə nə müddətdir gözüm var,
Söyləməyə sinəm dolu sözüm var.
Ürəyimdə alovum var, közüm var,
Amma sənsə gör bir nələr deyirsən,
Necə danım, xatirimə dəyirsən.

Sübh çağıdır, qayıdırsan bulaqdan,
Yerişini tanımışam uzaqdan,
Dayanmışam dar cığırda bayaqdan -
"Yol ver keçim, adam gələr", - deyirsən,
Necə danım, xatirimə dəyirsən.

Dayanmayıb tez ötürsən yel kimi,
Hicran dərdi coşa gəlir sel kimi.
Soruşanda "göndərimmi elçimi?"
Gülümsəyib "anam bilər" deyirsən,
Axı, mənim xatirimə dəyirsən.

### *Çəkər*

Gözəl, hüsnündəki o gözəlliyə
Baxsa, gül-çiçək də xəcəalət çəkər.
